# Amnistiya aktı dövlətimizin humanist siyasətinin növbəti nümunəsidir

***Amnistiya aktı - dövlət hakimiyyət orqanları tərəfindən qəbul olunmuş qərar əsasında həyata keçirilən normativ-hüquqi akt olaraq, hüquq pozuntuları törətmiş şəxsləri onlara qarşı tətbiq olunmuş və ya oluna biləcək sanksiyalardan (cəzalardan) azad edir, yaxud yüngülləşdirir. Bu, demək olar ki, dünyada geniş şəkildə tətbiq olunsa da, onun aid edildiyi təbəqə bütün ölkələrdə eyni deyildir. Bəzilərində amnistiya aktı mütəmadi olaraq həyata keçirilir, bəzilərində isə istisna hallarda tətbiq olunur.***



Ölkəmizdə də amnistiya aktı demokratik və humanist prinsiplərə əsaslanaraq mütəmadi şəkildə tətbiq olunur. Ümummilli lider Heydər Əliyev xalqın təkidi və xahişi ilə siyasi hakimiyyətə qayıdışından sonra insan hüquq və azadlıqlarının müdafiəsini daim diqqətdə saxlamaqla, törətdiyi cinayət əməlini etiraf edən və bundan peşmanlıq hissi keçirən şəxslərin əfv olunmasına, bağışlanmasına xüsusi önəm vermişdir. Məhz elə bu məqsədlə də ölkəmizdə Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının və əfvetmə institutunun yaradılması gerçəkləşdirilmişdir. Bütün bunlar ulu öndərin humanizm prinsiplərinə sadiqliyindən irəli gəlmişdir. Ümummilli liderin 1995–2003-cü illər ərzində imzaladığı 32 əfv fərmanı ilə 3 mindən artıq məhkumun azadlığa buraxılması da bunun bariz nümunəsi idi. Həmin dövrdə Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi amnistiya aktlarının on minlərlə şəxsə şamil olunması da ümummilli liderin insan amilinə göstərdiyi həssas münasibətdən, humanizmə dərin bağlılığından irəli gəlmişdir. Humanizm siyasətinin bariz nümunəsi özünü müstəqillik illərindən bugünədək 12 amnistiya aktı qəbul edilməsində də açıq şəkildə büruzə verir. Bütövlükdə, 1995-ci ildən bugünə qədər qəbul edilən amnistiya aktları nəticəsində 140 minə yaxın şəxs cinayət məsuliyyətindən və cəzadan azad edilərək evinə, ailəsinə, cəmiyyətə qayıtmışdır.

Bu gün ulu öndər Heydər Əliyev yolunun layiqli davamçısı, Prezident İlham Əliyev humanist və demokratik siyasəti uğurla həyata keçirir. Dövlət başçımız prezidentlik fəaliyyətinə başlayandan indiyə qədər 34 əfv sərəncamı imzalayıb ki, bununla 4 mindən artıq şəxs cəzadan azad edilib. Dövlət başçımızın imzaladığı əfv sərəncamları ilə insanlara bağışlanmaq imkanı, cəmiyyətdə öz yerlərini tutmaları, layiqli həyat yaşamaları üçün şans verir. Bu, Prezident İlham Əliyevin mərhəmət və humanizm prinsiplərinə söykənən siyasətinin, aparılan islahatların tərkib hissəsidir. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da təşəbbüsü ilə qəbul olunan amnistiya aktları xalqımız tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. Xüsusilə, qeyd olunmalıdır ki, 2007, 2009, 2013, 2016-cı illərdə qəbul olunan amnistiya aktlarının təşəbbüskarı Birinci vitse-prezident Mehriban xanım Əliyeva olmuşdur. Bu 4 amnistiya aktının ümumilikdə 40 minə yaxın şəxsi əhatə etdiyini nəzərə alsaq, dövlətimizin humanist siyasətinin uğurla həyata keçirilməsindən əmin ola bilərik.

Bütövlükdə, bu günə qədər Azərbaycanda 67 əfvetmə haqqında sərəncam imzalanıb. Bu sərəncamlar 8 774 nəfərə şamil edilib. Ölkə başçısı Prezident İlham Əliyev tərəfindən 35 əfv sərəncamı imzalanıb ki, bu da 5 672 nəfərə şamil olunub. Bu günə qədər həyata keçirilən 11 amnistiya aktı 11 min 7770 şəxsə şamil edilib. Prezident İlham Əliyevin hakimiyyəti dövründə, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 4 amnistiya aktı 40 min 412 nəfərə şamil olunub.

Zəfər Günü münasibətilə həyata keçirilən amnistiya dövlətin humanist siyasətinin növbəti təzahürüdür.

Bizi şanlı tarixmizin ən qürurverici səhifələrindən olan, erməni qəsbkarlarına qarşı Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsindən qısa bir zaman kəsiyi ayırır. Prezident, Ali Baş Komandan İlham Əliyev həm müharibə zamanı, həm də postmüharibə dövründə hərbçilərimizin qəhrəmanlığını və şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna dərin ehtiram göstərir, onların müqəddəs xatirəsini daim uca tutur. Həmçinin hərbi əməliyyatlarda iştirak etmiş şəxslərin müharibədən sonrakı durumu, şəhid və qazi ailələrinin sosial- psixoloji vəziyyəti dövlət başçımız tərəfindən həmişə diqqət mərkəzində saxlanılır. Vətənimizin müdafiəsi, torpaqlarımızın bütovlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə və müharibə iştirakçılarına, ümumiyyətlə, şanlı Qələbədə payı olan hər kəsə diqqət və qayğı dövlət siyasətimizin mühüm və prioritet tərkib hissəsidir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan şəxslərin problemləri ilə müntəzəm olaraq maraqlanır, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün müvafiq tədbirlər həyata keçirirlər. Bu tədbirlərin sırasında Milli Məclisin Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü əsasında “8 Noyabr Zəfər Günü münasibətilə amnistiyanın elan edilməsi haqqında” Qərarın təsdiqi də mühüm yer tutur. Həmin amnistiya aktına əsasən, azad ediləcək məhkumların əhatə dairəsi də qeyd olunmuşdur. Burada həssas qrupa daxil olan insanlara, xüsusilə, Vətən müharibəsində və dövlətimizin suverenliyinin, ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə və onların qohumlarına xüsusi yer verilmişdir. Möhtəşəm Qələbəmizin 1-ci ildönümü ilə bağlı dövlət başçımızın təşəbbüsü ilə Milli Məclisə təqdim olunan bu amnistiya aktının ümumilikdə, 16 mindən çox şəxsə şamil olunancağı nəzərdə tutulmuşdur.

Amnistiya aktının əhatə dairəsi çox genişdir. Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etmiş, həlak olmuş və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, müharibədə iştirakla əlaqədar, eləcə də digər xüsusi xidmətlərə görə orden və medallarla təltif olunmuş şəxslər, Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı düşmənin təxribatları nəticəsində əlil və ya həlak olmuş, Xocalı soyqırımında əlil olmuş, həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, etnik təmizləmə, terrorçuluq və soyqırım siyasəti nəticəsində Ermənistandan deportasiya edilmiş şəxslər, məcburi köçkünlər yararlanacaqlar. O cümlədən, 1990-cı il 20 Yanvar faciəsində əlil olanlar və ya şəhidlərin yaxın qohumları, Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, həmçinin, bu döyüşlərdə həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları da amnistiya aktından faydalanacaqlar. Bunlarla yanaşı, keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş, Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş şəxslər də humanizim siyasətindən yararlananlar siyahısında yer alacaqlar.

Qadınlar, cinayət törədərkən yaşı 18-ə çatmamış, bu qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər, bu qərar qüvvəyə mindiyi günədək I və II dərəcə əlilliyi olanlar, öhdəsində yetkinlik yaşına çatmayan övladı, yaxud I və II dərəcə əlil övladı olan şəxslər, o cümlədən qərarın qüvvəyə mindiyi günədək atalığı, övladlığa götürməsi, qəyyumluğu və himayəçiliyi qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən olunmuş şəxslər də bu humanist aktdan yararlanacaqlar.

Zəfər Günü ilə əlaqədar qəbul olunmuş amnistiya aktının daha bir fərqli cəhəti onun həm də böyük ictimai təhlükə törətməyən, cinayət törətməsinə görə cəza çəkən, barəsində cinayət təqibi aparılan şəxslərə də şamil edilməsidir. Həmçinin, bu amnistiya aktı özünün miqyasına, əhatə etdiyi kateqoriyaya görə də əvvəlkilərdən ciddi şəkildə fərqlənir.

Sözügedən amnistiya aktının önəmli olan başqa bir cəhətini də unutmamaq lazımdır. Bu danılmaz faktdır ki, amnistiya bütün dövrlərdə və hər yerdə insanların azadlığa qovuşması ilə yaddaqalan bir humanizm aktıdır. Hazırkı şəraitdə isə ən mühüm məqam amnistiya aktının qalib bir dövlət, müzəffər lider tərəfindən həyata keçirilməsi və bu aktdan “Vətən müharibəsi”ndə iştirak etmiş şəxslərin, şəhid və qazi əsgərlərin yaxınlarının da yararlanmasıdır. Bu da ölkəmizdə uşaqdan – böyüyə hər kəsi sevindirir, dövlətimizə, dövlətçilik ənənələrimizə, ümummilli liderin ən sadiq davamçısı olan möhtərəm Prezidentimiz İlham Əliyevin uğurlu və məqsədyönlü siyasətinə inamı, etibarı artırır.

44 günlük Vətən müharibəsi bütün dünyaya həm də onu göstərdi ki, biz xalq olaraq bir nəfər kimi silaha sarılmağa, ölkə rəhbərinin ətrafında sıx birləşməyə, onun “dəmir yumruğu”na dəstək olmağa həmişə hazırıq.

Vətən müharibəsində xidməti olan insanlar bu gün cəmiyyətimizdə hər cür diqqətə və hörmətə layiqdirlər. Dövlət başçımızın bu humanist addımı özlüyündə tarixi bir hadisə olmaqla, bütün xalq tərəfindən böyük rəğbətlə qarşılanır və hər kəsin Azərbaycanın bütövlüyü uğrunda, dövlətçilik yolunda həmişə belə səfərbər olmasına, əzmlə, yüksək vətənpərvərlik duyğusu ilə işləməsinə, yaşamasına, yaratmasına stimul verir.

Zəfər Günü ilə əlaqədar qəbul olunmuş amnistiya aktı dövlətimizin humanizm siyasətinə sadiqliyinin davamıdır. Ərazi bütövlüyünün təmin edilməsi ilə bərqərar olmuş ədalət və hüququn aliliyi ideallarının hər bir dövlət və cəmiyyət üçün əhəmiyyətini vurğulayaraq, humanizm ənənələrini davam etdirərək, cinayətlərin xarakteri və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad olunacaq şəxslərin dövlətimizin rifahına və inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək, Zəfər Günü münasibətilə qəbul edilən amnistiya aktı respublikamızda insan amilinə verilən dəyərin növbəti nümunəsidir.

***Taryel ƏLƏKBƏROV,***
***Lənkəran rayon prokuroru,***
***baş ədliyyə müşaviri***